# Yaşıl İqlim Fondunun Özəl Sektora Dəstək

GREEN CLIMATE FUND

2017-ci il

**Naşir: Yaşıl İqlim Fondu (YİF)**
Songdo International Business District
175 Art Center-daero
Yeonsu-gu, Incheon 22004
Koreya Respublikası

+82.32.458.6059
info@gcfund.org
**greenclimate.fund**



# Yaşıl İqlim Fondunun
# Özəl Sektora Dəstək (ÖSD)

**2017-ci il**

İnkişaf etməkdə olan ölkələrin istixana effektli qaz tullantılarının azaldılması və iqlim dəyişmələrinə davam gətirən inkişafa investisiya qoymaqla iqlim dəyişmələrinə qarşı fəaliyyətini dəstəkləmək üçün yaradılmış yeni qlobal fond.

Dünya miqyasında orta temperatur artımını 2° C səviyyəsindən kifayət qədər aşağıda saxlamaq məqsədilə Birləşmiş Millətlər Təşkilatı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) nəzdində təsis edilib



# Yaşıl İqlim Fondu

Yaşıl İqlim Fondu (YİF) inkişaf etməkdə olan ölkələrdə istixana effektli qaz tullantılarının azaldılması və iqlim dəyişmələrinə davam gətirən işlərə keçidi təşviq etməklə iqlim sahəsində fəaliyyətə dəstək vermək üçün Birləşmiş Millətlər Təşkilatı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasın (UNFCCC) tərəfindən təsis edilmişdir. YİF, inkişaf etməkdə olan ölkələrin Paris Sazişi ilə bağlı götürdüyü ilə bağlı götürdükləri öhdəliklərini yerinə yetirməsinə dəstək verir.

YİF, inkişaf etməkdə olan ölkələrə mənsub olan və iqlim dəyişmələrinə təsirbaxımından əhəmiyyətli olan təklifləri maliyyələşdirir. YİF mitiqasiya və adaptasiya tədbirlərini investisiya qoyuluşunu 50:50 nisbətində təmin etməyə çalışır və adaptasiya üçün nəzərdə tutulan maliyyə təminatının ən azı 50 faizini ən az inkişaf etmiş ölkələr, inkişaf edən kiçik ada dövlətləri və Afrika ölkələri daxil olmaqla iqlim dəyişmələrinin təsirinə xüsusilə həssas olan ölkələrə ayıracaqdır.

Fond, iqlim sahəsinə edilən investisiya qoyuluşunun yüksək təsir və oturuşmuş baxışlar toplusunu dəyişmək gücünü aşkara çıxarmaq məqsədilə dövlət sektoru, həmçinin özəl sektorla əməkdaşlığa cəhd göstərir. YİF, səciyyəvi investisiya qoyuluşu şəraitinə və bazar maneələrinə cavab vermək üçün ona imkan yaradan bir sıra çevik maliyyələşdirmə mexanizmləri təklif edir. Fond həmçinin onun maliyyə vəsaitindən istifadəyə hazır olan ölkə miqyaslı qurumlarla birgə işləmək iqtidarındadır.

Fond, istixana effektli qaz tullantılarının azaldılması və iqlim dəyişmələrinə davam gətirən inkişafa keçidlə bağlı oturuşmuş baxışlar toplusunun gerçəkləşməsi ilə bağlı mövqeyini dəstəkləyən tərəfdaşlar axtarışındadır.

# Özəl Sektora Dəstək (ÖSD)

YİF, inkişaf etməkdə olan ölkələrdə iqlim dəyişmələrinə qarşı mitiqasiya və adaptasiya layihələrini dəstəkləmək üçün yerli və qlobal miqyasda özəl sektorla əməkdaşlığı asanlaşdıran Özəl Sektor Dəstək (ÖSD) mexanizimınə malikdir.

Tərəfdaşlarımızla fəal əməkdaşlıq vəsaiti olan ÖSD inkişaf etməkdə olan ölkələrdə yüksək təsir gücü olan dəyişmələrə yol açan və yeniliklərə səbəb olan iqlim layihələrinin maliyyələşməsini sürətləndirə bilər.

ÖSD, karbon tullantıları aşağı olan və iqlim dəyişmələrinə davam gətirən inkişaf təşəbbüsləri üçün özəl kapital təminatında riskləri aradan qaldırmaqla və özəl mənbələr hesabına investisiya axınlarının miqyasını artırmaqla mövcud baxışlar toplusunu dəyişmək məqsədinə xidmət edir.

Fond nisbətən yüksək risklərə açıqdır və tərəfdaşlarını investisiya qoyuluşu baxımından aşağı səviyyədə karbon tullantıları və iqlim dəyişmələrinə davam gətirən yeni təşəbbüs sahələrinə girişməyə sövq etmək istəyindədir.

## YİF-in özəl sektorla bağlı dəyər təminatları

- Məqsədimiz inkişaf etməkdə olan ölkələrdə iqlim sahəsində çağırışları həll etmək naminə qlobal kapital axınlarında riskləri aradan qaldırmaqdır
- Ən az inkişaf etmiş ölkələr, inkişaf edən kiçik ada dövlətləri və Afrika ölkələrinə xüsusi diqqət yetiririk
- Layihə ideyalarının iqlimlə bağlı mümkün üstünlüklərini qiymətləndirmək üçün Sizə yardım edəcək mütəxəssis təcrübəsini təmin edə bilərik
- Müxtəlif alətlər vasitəsilə uzunmüddətli maliyyə təminatını təklif edirik və nəticələrə nail olmaq üçün tələb olunan təqdirdə güzəşt mexanizmlərini yarada bilərik
- Fəaliyyətimiz konkret məqsədə və şəraitə uyğunlaşdırılıb



Özəl Sektora Dəstəyin məqsədi inkişaf etməkdə olan ölkələrdə özəl sektorun iqlim sahəsində fəaliyyətlərə qoşulmasını irəli çəkməkdən ibarətdir.

# İnvestisiya qoyuluşunu necə edirik?

**YİF aşağıdakı məqsədlər üçün borc, səhmdar kapital, zəmanətlər və qrantlar verir:**

- İnvestisiyalarda risklərin aradan qaldırmaq
- Sistemli transformasiyalara səbəb olmaq
- Kiçik layihələrin həcmini müəyyən etmək və onları daha böyük layihələr toplusuna qatmaq
- İşgüzarlığın artırılmasını dəstəkləmək
- Dövlət-özəl tərəfdaşlığı çərçivəsində iqlim dəyişmələrinə davam gətirən infrastruktur qurmaq
- İnnovasiyaları təşviq etmək

# Nəyə sərmayə qoyuruq?

YİF, ölkə prirotetlərinə uyğun olaraq özünün səkkiz strateji nəticələr sahəsinə investisiya qoyuluşlarını edir.

Enerji hasilatı və enerjidən istifadə etmək imkanı

Nəqliyyat

Tikintilər, şəhərlər, sənayelər və avadanlıq/cihazlar

Meşələr və torpaqdan istifadə

Sağlamlıq, ərzaq və su təhlükəsizliyi

İnsanların və icmaların gəlir imkanları

Ekosistemlər və ekosistem xidmətləri

İnfrastruktur və qurulmuş mühit

# Bizimlə necə işləyə bilərsiniz?

- Layihələr üçün vəsait akkreditasiyadan keçmiş təsisatlar (AKT) vasitəsilə yönəldilir
- Akkreditasiya, tərəfdaşlarımızın YİF ilə birlikdə eyni məqsədləri bölüşməsini, həmçinin geniş təcrübəyə və güclü maliyyə və idarəetmə infrastrukturuna malik olmasını təmin edən müfəssəl yoxlama prosesidir
- YİF-in akkreditasiyası üçün, yaxud mövcud olan AKT ilə tərəfdaşlıq əsasında işləmək üçün müraciət edə bilərsiniz
- YİF həmçinin səciyyəvi özəl sektor proqramlarına əsaslanan Təklif Sorğusu ilə çıxış edir və bu sorğularda akkreditasiyadan keçməmiş qurumlar da iştirak edə bilərlər

# Axtarışında olduğumuz nədir?

## Mandat və fəaliyyət nailiyyətləri

- YİF-in məqsədləri ilə uzlaşma
- Ən azından üç illik fəaliyyət təcrübəsi

## Fidusiar funksiyalar

Aşağıdakı şəkildə ola bilər:

- Ümumi
- Aşağıdakı sahələr üzrə ixtisaslaşmış:
  - Layihələri idarəetmə
  - Qrantların verilməsi
  - Zəncirvari kreditvermə /qarışıq borc (kreditlər, səhmdar (şəxsi) kapital və/yaxud zəmanətlər)

# Akkreditasiyadan Keçmiş Qurumları necə təsnif edirik?

## Layihənin həcmi




## Ətraf Mühit və Sosial Təminatlar



# Layihələrə İnvestisiya Qoyuluşu Meyarları

### Təsir gücü

Layihə YİF-in məqsəd və gözləntilərinə töhfə verə bilərmi?

### Oturuşmuş baxışlar toplusunu dəyişdirmək gücü

Layihə birdəfəlik təşəbbüs çərçivəsindən çıxaraq müsbət təsirə səbəb ola bilərmi? Özəl sektorla əməkdaşlıq qarşısında olan maneələri hansı səviyyəyədək aradan qaldıra, həmçinin karbon tullantıları aşağı olan və iqlim dəyişmələrinə davam gətirən inkişaf yolları üzrə sistemli dəyişmələri hansı dərəcəyədək doğura bilər?

### Dayanıqlı inkişaf gücü

Layihə daha geniş miqyasda üstünlük və prioritetlərə malikdirmi? Ətraf mühit və sosial təminatlar, həmçinin gender bərabərliyi layihənin ayrılmaz hissələri arasında yer tapıbmı?

### Resipiyentin ehtiyacları

Layihə bəhrənənən ölkənin və əhalinin maliyyələşmə ehtiyaclarını təmin edirmi? Alternativ maliyyələşmə mənbələri mövcuddurmu?

### Ölkəyə mənsubolma

Maliyyə təminatı verilmiş layihəni bəhrələnən ölkənin siyasətlərinə, iqlim strategiyalarına və təsisatlarına uyğun qaydada həyata keçirmək üçün bəhrələnən ölkədə müvafiq səriştə toplusu və layihəyə icrası təcrübəsi varmı?

### Ölkəyə mənsubolma

Layihə xərclərin effektivliyinə və özəl mənbələr hesabına maliyyə təminatının səfərbər edilməsinə rəvac verirmi?



# İdeyadan İnvestisiyaya Aparan Yol

1. Ölkənizin iqlim ilə bağlı fəaliyyət plan və prioritetlərini dəstəkləyən hədəfə uyğun olan ideya ilə gəlin – bu ideyanı qeyri-rəsmi müzarikə edək.
2. Bu ideyanızın ölkənin ehtiyacları və prioritetləri ilə uzlaşmasını təmin etmək üçün Milli Səlahiyyətli Orqan (MSO)/milli əlaqələndirici ilə əlaqə saxlayın və müzakirə aparın – sizə sözügedən əlaqənin yaradılmasında yardım edə bilərik.
3. İdeyanızı layihə konsepsiyası formasında bizə təqdim edin – konsepsiyanızla bağlı rəyimizi sizə bildirəcəyik.
4. Akkreditasiyadan keçməmisinizsə bunu etməlisiniz, yaxud akkreditasiyadan keçmiş bir qurumun tərəfdaşı kimi çıxış etməlisiniz.
5. Bu mərhələdə benefisiar ölkənin MSO-dan “razılıq məktubu” almaqla bu orqanın layihədən xəbərdar olmasını və onu ölkə üçün faydalı hesab etməsini nümayiş etdirməlisiniz.
6. Bundan sonra maliyyə təminatı üçün tam layihə təklifini təqdim edə bilərsiniz.
7. Layihə təklifi bizim tərəfimizdən, həmçinin Müstəqil Texniki Məşvərət Şuramız tərəfindən yoxlayacaqdır.
8. Layihə təklifiniz yekun qərarın verilməsi üçün İdarə Heyətinə təqdim edilir.
9. Layihə bəyənildikdə Fəaliyyətin Maliyyələşməsinə dair Razılaşmanı imzalayırıq.



# YİF-in Resurslarına Çıxış

Layihə, yaxud proqram təkliflərini istənilən vaxt təqdim etmək olar və ideyanızın maliyyə təminatı üçün təklifə çevrilməsi mərhələləri boyu sizi istiqamətləndirməyə hazırıq.

Təkliflər Sorğusu vasitəsilə investisiya qoyuluşu üçün səciyyəvi sahələri də prioritetləşdiririk.

# Maliyyə Təminatının Lazımi Həcmdə Səfərbər Edilməsi (TS)

Hazırki TS (Təklif Sorğusu) inkişaf edən dünyada iqlim dəyişmələrinə təsir etmək gücünə malik olan layihə təkliflərinin maliyyələşməsinə əhəmiyyətli miqdarda özəl investisiyalar qoyulması üçün ilk qlobal müsabiqəmizdir.

## YİF investisiyaları

500 milyon ABŞ dollarınadək

## Təsvir

Müddəti 2017-ci il 30 avqust tarixində başa çatmış TS üzrə inkişaf edən 75 ölkədə müvafiq fəaliyyətləri ehtiva edən 350 təklif edilmişdir. Təkliflər, üstün konsepsiya qeydlərinin maliyyə təminatında tam təkliflərə çevrilməsi üçün priroritetləşdirildiyi üçpilləli seçim sistemindən keçərək bəyəinlməlidir. YİF-nin akkreditasiyasından keçməmiş qurumlar bunu layihə təklifi tərtib edildikcə həyata keçirməlidirlər. Yekun siyahıya salınmamış, lakin müvafiq potensiala malik olan konsepsiya qeydləri YİF-nin yeni təşəbbüslərinə daxil edilə bilər.

## İnvestisiya qoyuluşunun məqsədləri:

- İnkişaf edən ölkələrdə müsbət rəy nümayiş etdirən, erkən mərhələdə səhmdar (şəxsi) kapital, uzunmüddətli möhlət (güzəşt) müddəti verilən kreditlər, qrantlar və zəmanətlərin tələb edildiyi yumşaldıcı və uyğunlaşma layihələri, həmçinin iqlimlə əlaqədar xidmətlər üçün özəl mənbələrdən kapital təminatına səbəb olmaq;
- Özəl mənbələr hesabına investisiya axınlarına imkan yaratmaq üçün bazar maneələrinin aradan qaldırılması baxımından iqlim layihələrinin sponsorlarını yerli səviyyədə, fəaliyyət həcmindən asılı olmayaraq dəstəkləmək;
- YİF-nin səkkiz strateji nəticələr sahəsinin diqqət mərkəzində saxlandığı yeni, özəl sektorun rəhbərlik etdiyi xidmət və innovasiyalara təkan vermək.

# Mikro, Kiçik və Orta Müəssisələr Proqramı (TS)

Bu, özəl sektor üçün ilk TS idi. Onun müraciətlər üçün ilk mərhələsi 2016-cı ildə tamamlanmışdır. Lakin bu mərhələdən əldə edilmiş təcrübə örnəklərə əsaslanaraq İdarə Heyətinin razılığı ilə 2018-ci ildə bu proqram üzrə yeni TS elan edilmişdir.

## YİF investisiyaları

200 milyon ABŞ dollarınadək

## Təsvir

İnkişaf etməkdə olan ölkələrdə mitiqasiya və adaptasiya layihələri çərçivəsində MKOM-nin dəstəklənməsi üçün AKT, yaxud akkreditasiyadan keçməsi mümkün olan təsisatlara edilən müraciət.

## İnvestisiya qoyuluşunun məqsədləri:

- Təsirlərə həssas olan ölkələri xüsusi diqqət mərkəzində saxlamaqla iqlim dəyişmələrinə davam gətirən, karbon tullantılarını azaldan və ekoloji tarazlığı qoruyan iqtisadi sistemlərdə innovasiyalar və yaxşılaşmalara təkan verən MKOM-i maliyyə vəsaitinə çıxışla təmin etmək

İdarə Heyəti bu müraciət dövrü üzrə indiyədək üç layihəni təsdiqləyib, daha bir neçə layihə isə növbəti iclaslarda baxılmaq üçün İH-nə təqdim ediləcəkdir.

# Özəl sektor layihələrinə dair nümunələr



## GEEREF NeXt

### Ölkələr

Müxtəlif ölkələr – qlobal miqyas

### YİF investisiyaları

Səhmdar (şəxsi) kapital şəklində 250 milyon ABŞ dolları, qrant şəklində isə 15 milyon ABŞ dolları

### Təsvir

Ən az inkişaf etmiş ölkələr, inkişaf edən kiçik ada dövlətləri və Afrika ölkələri də daxil olmaqla inkişaf etməkdə olan ölkələri hədəf kimi götürən və bərpa olunan enerji (BOE) və enerji səmərəliliyi (ES) layihələrində özəl mənbələrdən səhmdar (şəxsi) kapital təminatçısı qismində ilk investor kimi çıxış etmək məqsədini daşıyan 750 milyon ABŞ dolları həcmində innovativ investisiya fondu platforması.

### İnvestisiya qoyuluşunun məqsədləri:

- İnkişaf edən bazarlarda bərpa olunan enerji və enerji səmərəliliyi sahələrində fəaliyyət göstərən güclü şirkətləri erkən və sonrakı artım mərhələlərində səhmdar (şəxsi) kapitalla təmin etmək;
- İnstitusional investorların inkişaf etməkdə olan ölkələrdə iqlim sahəsində investisiya qoyuluşları üzrə böyük həcmdə multiplikator (çoxaldıcı) amili ilə nəticələnən bərpa olunan enerji və enerji səmərəliliyi sahələrinə investisiya qoyuluşlarına səbəb olmaq;
- Karbon qazı tullantılarını 769 milyon ton azaltmaq.

YİF-n investisiya qoyuluşları erkən mərhələdə yarana biləcək ilkin itkiləri üzərində götürməklə inkişaf etməkdə olan ölkələrdə yeni bazarlar yaratmaq və riskə meyl etməyən özəl investorlar üçün müxtəlif BOE/ES layihələri və texnologiyalarına kapitalın ayrılması üçün geniş çeşiddə imkanlar təklif etmək məqsədilə əsaslı kapital vəsaitini bir araya gətirir.

# Yaşıl Enerjiyə Universal Çıxış Proqramı

## Ölkələr

Benin, Keniya, Namibiya, Nigeriya, Tanzaniya

## YİF investisiyaları

Səhmdar (şəxsi) kapital şəklində 74.8 milyon ABŞ dolları, qrant şəklində isə 1.6 milyon ABŞ dolları

## Təsvir

Əks mərkəzləşmiş enerji xidmət təminatçısı şirkətlərinə şəbəkə xarici fəaliyyətin və kiçik həcmli şəbəkə sistemlərinin maliyyələşməsini təmin edən investisiya fondu

## İnvestisiya qoyuluşunun məqsədləri:

- Yerli maliyyə təsisatlarının bərpa olunan enerji sektoru barədə biliklərini və bu sektora maraqlarını artırmaq;
- Xarici və yerli özəl investorları Saharadan cənubda yerləşən Afrika ölkələrində dayanıqlı enerji mənbələrindən istifadə sahəsinə yönəldərək bir araya gətirmək;
- Karbon qazı tullantılarını 50.6 milyon ton azaltmaq.

YİF-in töhfəsi yerli maliyyə təsisatları ilə birlikdə işləyərək yerli kiçik və orta sahibkarlıq subyektlərini (KOSS) bazardan təcrid etməmək məqsədilə onlar üçün lazımi həcmdə kapitala çıxış imkanlarını təmin etməkdən ibarət olacaqdır.

Deutsche Bank





# KawiSafi Fondu

## Ölkələr

Keniya və Ruanda

## YİF investisiyaları

Səhmdar (şəxsi) kapital şəklində 20 milyon ABŞ dolları, qrant şəklində isə 5 milyon ABŞ dolları

## Təsvir

Keniya və Ruandada iqisadiyyatda dönüş yaradan əks mərkəzləşdirilmiş təmiz enerji təşəbbüslərini dəstəkləmək naminə ekoloji tarazlığı qoruyan investisiya fondu

## İnvestisiya qoyuluşunun məqsədləri:

- Əhalinin ən aşağı təbəqələri üçün enerji mənbələrinə universal çıxış imkanlarını artırmaq;
- Azalan texnoloji xərclər və səyyar ödəmə platformalarının yaradılmasından faydalanmaqla şəbəkə xarici günəş enerjisi təchizatıları üçün yeni fəaliyyət sistemini qurmaq;
- Karbon qazı tullantılarını 1,5 milyon ton azaltmaq;
- Bu təşəbbüsdən 15  milyon insanınfaydalanacağını təmin etmək.

YİF-in səhmdar (şəxsi) kapitalı özəl mənbələr hesabına investisiya qoyuluşlarının edilməsi üçün təminatdır, maliyyələşmənin texniki cəhətləri üçün verilən qrantlar isə son benefisiarları və şirkətləri layihə çərçivəsində fəaliyyətin həcmi və maliyyələşdirilməsinin işlək şəklə salınmasını dəstəkləmək məqsədini daşıyır.

# Enerji Səmərəliliyi üçün "Yaşıl" İstiqraz Buraxılışı

## Ölkə

Meksika

## YİF investisiyaları

Zəmanət şəklində 20 milyon ABŞ dolları, qrant şəklində isə 2 milyon ABŞ dolları

## Təsvir

Meksika kapital bazarında özəl sektor investorları üçün "yaşıl" (ekoloji tarazlığı qoruyan) istiqrazların müqayisəli meyar yaratmaq məqsədilə buraxılışına dəstək verən enerji səmərəliliyi layihələri məcmusunun sekyuritizasiyası (qeyri-likvid aktivlərin likvid qiymətli kazıqlarda ifadə edilməsi). YİF-in Natamam Kredit Zəmanəti komponenti bu buraxılışı dəstəkləmək üçün kənar mənbələr hesabına kreditin tələb edilən artırılmasını təmin edəcəkdir.

## İnvestisiya qoyuluşunun məqsədləri:

- Latın Amerikasında iqlim sahəsində mitiqasiya tədbirləri üçün maliyyə vəsaiti qıtlığını aradan qaldırmaq məqsədilə institusional fondların maliyyə vəsaitini mikro, kiçik və orta sahibkarlıq subyektləri kimi fəaliyyət göstərən enerji təchizatçıları üçün lazımi həcmdə səfərbər etmək;
- Özəl investorları tələb edilən səviyyədə bir araya gətirmək üçün kapital bazarlarından istifadə etmək;
- Kapital bazarları fonunda əldə edilmiş nəticələrin təsirliyini nümayiş etdirməklə təşəbbüslərin təkrar tətbiqi və miqyasının artırılması;
- Karbon qazı tullantılarını 2.6 milyon ton azaltmaq.

Bu innovativ investisiya ilə enerji səmərəliliyi layihələrinin maliyyələşdirilməsi üçün yeni zəruri üsulları ərsəyə gətirməklə Latın Amerikası təcrübəsində ilk dəfə "yaşıl" (ekoloji tarazlığı qoruyan) istiqrazların buraxılış mexanizmi işləniləcək.







# YİF-AYİB Misirdə Bərpa Olunan Enerji Sektorunun Maliyyələşməsi Mexanizmi

## Ölkə

Misir

## YİF investisiyaları

Üstün tələbli kredit şəklində 150 milyon ABŞ dolları, qrant şəklində isə 4.7 milyon ABŞ dolları

## Təsvir

Ölkə təcrübəsində ilk dəfə olaraq, irihəcmli hasilat məqsədli, sayı 8-12 arasında alt-layihəni əhatə edən 600 meqavat gücündə bərpa olunan enerji layihəsinin həyata keçirilməsinə dəstək

## İnvestisiya qoyuluşunun məqsədləri:

- Karbon qazı tullantılarını 15,3 milyon ton azaltmaq, 6300 yeni iş yeri yaratmaq, 800 min insanın enerji istehlakını əvəzləmək;
- Misirin "2035-ci ilədək Dayanıqlı Enerji Strategiyasının" 2019-cu ilədək 4300 meqavat gücündə BOE hasilatı hədəfinə dəstək vermək;
- YİF-nin investisiya qoyuluşu ilə Misirin enerji balansında BOE çəkisini 2016-cı ildə 2 faizdən 2018-ci ildə 8 faizədək artırılmasına şərait yaratmaq;
- Oxşar təşəbbüslərin təkrar tətbiqi və miqyasının artırılması;
- Qrant şəklində ayrılan vəsaiti bərpa olunan enerji siyasətinin (o cümlədən tenderlərin keçirilməsi mexanizminin) və gender təşəbbüslərinin işlənilməsinə uyğunaşdırmaq.

YİF-in maliyyə dəstəyi Misir təcrübəsində ilk dəfə olaraq, bərpa olunan enerji sektorunun dayanıqlı inkişafına şərait yaratmaq məqsədilə müvafiq siyasətin yaradılması prosesində iştirakçılığı təşviq etməklə bu sektorun inkişafı üçün aydın yol xəritəsini təmin edir.

European Bank
for Reconstruction and Development

# İstixana Effektli Qaz Tullantılarını Azaltmaq üçün Biznes Kreditləri Proqramı

## Ölkə

Monqolustan

## YİF investisiyaları

Üstün tələbli kredit şəklində 19,5 milyon ABŞ dolları, qrant şəklində isə 0,5 milyon ABŞ dolları

## Təsvir

Proqramla XacBank maliyyə təsisatı qadınların rəhbərlik etdiyimikro, kiçik və orta sahibkarlıq subyektlərini diqqət mərkəzində saxlamaqla enerji səmərəliliyi və bərpa olunan enerji layihələrinə investisiya qoyuluşu edən Monqolustan şirkətlərinə kreditlərin verilməsini dəstəkləyən üstün səriştə ilə təmin edilir.

## İnvestisiya qoyuluşunun məqsədləri:

- XacBank maliyyə təsisatının oxşar proqramların həyata keçirilməsində müsbət fəaliyyət təcrübəsindən və qadınların rəhbərlik etdiyi mikro, kiçik və orta sahibkarlıq subyektlərindən ibarət güclü müştəri bazasından fayda ilə istifdə etmək;
- Güzəşt mexanizmlərini son benefisiarlara ötürmək;
- Karbon qazı tullantılarını 1,2 milyon ton azaltmaq.

Bununla YİF, gələcəkdə dünya miqyasında birbaşa çıxış əldə edilən maliyyə təsisatları ilə əməkdaşlıq imkanına zəmin yaratmaq məqsədilə inkişaf etməkdə olan ölkələr arasında ilk yerli özəl kommersiya layihəsində iştirakını təmin etmiş olur.

XACBANK



# Bizimlə Əlaqə

**Ayan Adəm**
Müdir, Özəl Sektora Dəstək

**Toni Klemp**
Müdir müavini, Özəl Sektor Dəstək

**Jivu Çoy**
Maliyyə Təsisatları və Strukturlaşmış Maliyyə Təminatı bölməsinin rəhbəri

privatesector@gcfund.org

**Yaşıl İqlim Fondu**
Songdo Business District
175 Art center-daero
Yeonsu-gu, Incheon 22004
Koreya Respublikası


GREEN
CLIMATE
FUND